

**50 yaş əslində yubileylərin ən şirini, ən yaddaqalanıdır. Bu yaşda hələ özünü cavan, gümrah, çevik hiss edirsən...**

# Bir gözqırpımı kimi

**Vəzifələrin yaxşısına, kürsülərin böyüyünə, mükafatların alisinə layiq görülürsən.**

Məqaləmizə bu girişi nahaqdan vermirik. Bu günlərdə Neftçala Rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiri Elmira xanım Kazımovanın 50 yaşı tamam olur.

Yubleyi münasibəti ilə onu ürəkdən təbrik edib, gərəkli işlərində uğurlar diləyərkən Elmira xanımla ilk tanışlığımızı, sonralar nazirlik və bölgədə baş tutan görüşlərimizi, birgə qatıldığımız tədbirləri xatırlayırıq.

Xoşbəxtlikdən həmişə onu işgüzar, vəzifəsinə ciddi yanaşan, tədbirləri rəngarəng aparan, ətrafdakılarla xoşrəftar, tabeliyindəkilərə qarşı mehriban və qayğıkeş görmüşük.

Bütün bu keyfiyyətlər sonda onun nüfuz qazanmasına, həmkarlarından fərqlənməsinə gətirib çıxarmışdır. Bölgədə mədəni-maarif müəssisələrinin nail olduqları uğurlar da bilavasitə Elmira xanımın adı ilə bağlıdır.

Kazımova Elmira Əlifağa qızı 1961-ci il iyulun 10-da Neftçala rayonunun Bankə qəsəbəsində anadan olub. BDU-nun kitabxanaşünaslıq və biblioqrafiya fakültəsini bitirib. Şəhər internat məktəbində kitabxana müdiri, MKS-də müxtəlif vəzifələrdə çalışıb. 2004-2009-cu illərdə MKS-in direktoru olub.

**2009-cu il noyabrın 5-dən Neftçala Rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiridir. Ailəlidir, 4 oğlu var.**

**B. ZAYRALIQIZI**